# Beynəlxalq Muzeylər Günü



**Dünyada ilk muzey Ellin dövründə qədim Misirin paytaxtı İskəndəriyyə şəhərində yaradılmışdır. Burada 40000-dən artıq eksponat toplanmışdır. Şöhrəti bütün planetə yayılmış muzeylər isə çoxdur. Onlardan ən məşhurları Parisdə Luvr muzeyi, Londonda Viktoriya və Albert muzeyi, İstanbulda Topqapı muzeyi və Sankt-Peterburqda Ermitajdır.**

Azərbaycanda isə muzey işinin tarixi çox da qədim deyil. İlk milli muzeyin yaradılması Azərbaycan Xalq Cümhuriyyəti dövrü ilə bağlıdır. 1919-cu il dekabrın 7-də "İstiqlal" muzeyi fəaliyyətə başlamışdı. Muzeydə tariximizi, milli-mənəvi dəyərlərimizi əks etdirən eksponatlar, silahlar və əlyazmalar toplanmışdı. Sovet hakimiyyəti illərində respublikamızda muzey şəbəkəsi daha da genişlənmişdir: Nizami adına Ədəbiyyat Muzeyi, L.Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, Azərbaycan Tarixi Muzeyi, Xalq Maarifi Muzeyi, rayon və şəhərlərdə diyarşünaslıq muzeyləri, elm və mədəniyyət xadimlərinin ev-muzeyləri və s.

Azərbaycan həm də açıq səma altında yer-ləşən muzeylər ölkəsidir. Bunu Qobustanda, İstisu (Kəlbəcər) və Gəmiqayada (Naxçıvan) qaya üzərindəki təsvirlər də sübut edir.

Dünya mədəni ictimaiyyəti hər il mayın 18-ni 1977-ci ildə Beynəlxalq Muzeylər Şurasının konfransında təsis olunmuş Beynəlxalq Muzeylər Günü kimi qeyd edir. 1978-ci ildən etibarən bu bayram hər il 150-dən çox ölkədə qeyd olunur.

● **Adilə ABDULLAYEVA**